# "COVİD-19" VİRUSUNUN DA TALEYİ MÜƏMMA OLARAQ QALACAQDIR



***Bəhlul Eminli***

**Kommunist rejimli Cin belə bir ölkə olub indi.**

Cin dünyanın ən çox əhalisi olan ölkəsidi. Hazırda dünya əhalisinin təxminən hər 5 nəfərindən biri çinlidir. Tək partiyalı sistemə malik olan bu ölkədə dünyanın ən güclü iqtisadiyyatlarından biri formalaşıb. Texnologiyanın sürətli inkişafı, çevik iqtisadi manevr imkanı və ucuz işçi qüvvəsi Çində istənilən məmulatın ən qısa zamanda "kopya"lanması mümkünlüyünü real edib. İndi dünyanın hər yerində, hər kəs bilir ki, Çində insan ağlı kəsən hər hansı nəsnənin saxta variantının hazırlanması adi bir şeydir. İstənilən məmulatdan bir nüsxə apar Çinə orada ondan ən qısa müddədə hansı həcmədə istəsən hazırlasınlar. Bəli, bu və digər çevik iqtisadi keyfiyyətlərinə görə indi Çinin tayı-bərabəri yoxdu...

1978-ci ildə qəbul edilmiş iqtisadi islahatlar nəticəsində Çin iqtisadiyyatı hər il orta hesabla 6 faizlik artımla dünyanın ən sürətlə böyüyən iqtisadiyyatına çevrilib. Çin Ümumi daxili məhsulun (ÜDM) həcminə görə dünyada ikinci, alıcılıq qabiliyyəti göstəricisinə görə isə ilk yeri tutur. Çin, həmçinin dünyada ən böyük ixracatçı və ikinci ən böyük idxalatçı hesab olunur. Ölkə hazırda nüvə dövləti olaraq tanınır və dünyanın ən böyük ordusuna sahibdir və potensial super güc hesab olunur. Lakin, eyni zamanda yeni virusun vətənidi.

**Yeni virusun vətəni**

... Kanadanın Toranto Universitetində təhsil alan yaxınım tətillərdə ölkəyə qayıtmağa bir o, qədər də maraq göstərmirdi. Bu il qış tətili ərəfəsində onlayn əlaqə zamanı bu barədə ondan soruşanda o, bildirdi: - mənnən olsa uçmaq və üzmək imkanı olam bütün nəqliyyat vasitələrini dayandıraram. Çünki hər gün onminlərlə təyyarə havaya qalxır, bir o qədər də gəmi və tankerlər suların qoynunda bu ölkədən o ölkəyə, bu qitədən o qitəyə istiqamət alır. Hər gün təkcə bu nəqliyyat vasitələri atmosferə min tonlarla zərərli maddə atır. Mən dünyamız üçün bu ziyanlı prosesin heç olmasa müntəzəm iştirakçısına çevrilmək istəməzdim, - dedi. Onun bu cür düşünməsi mənə qəribə gəldi. Və hardasa bu müasir düşüncəli gənci qınadım da. Bizim bu diskusiyamızdan çox vaxt keçməmişdi...

... Dünyaya yeni Koronavirus xəbəri yayıldı. Xəbərin məkanı və ünvanı Çinin Uhan şəhəri idi. İlk baxışda o qədər də əhəmiyyət verilməyən bu xəbər qısa zamanda dünyanı "COVİD 19" adıyla lərzəyə saldı. Çox keçmədi virus Cin "səddini" aşdı. Əvvəlcə qonşu ölkələrə, sonra isə Avropa qitəsinə və okeanın o tayına "təşrif" apardı. Necə deyərlər: "Cin sehirli lampadan çıxmışdı". Hadisə düyanın gözləmədiyi sürətlə cəryan edirdi.

Virusun yayılma tempi onun arealını idarəolunmaz sürətlə böyüdürdü. Martın 11-də Ümumdünya Səhyyə Təşkilatı (ÜST) virusun dünyaya sürətlə yayılmasını rəsmən epidemiya adlandırdı. Məlumatda bildirilirdi ki, "COVID-19"-un dünyaya cəmi üç ay əvvəl məlum olmasına baxmayaraq, martın 11-nə qədər bütün dünyada 121 min nəfərdən çox insan bu virusa yoluxub.

ÜST-ün baş direktoru, həkim Tedros Adxanom Qebreyesus martın 11-də Cenevrədə təşkilatın qərargahında keçirilən mətbuat konfransında deyib: "Son iki həftə ərzində Çinin hüdudlarından kənarda yoluxma halları 13 dəfə çoxalıb, əhatə olunan ölkələr isə üçqat artıb".

ÜST rəhbəri deyib ki, təşkilat ucadan və aydın şəkildə hamıya həyəcan siqnalı verir: "Növbəti günlərdə və həftələrdə biz xəstəlik hallarının, ölümlərin və əhatə olunan ölkələrin artacağını gözləyirik".

Bu dünyanın üz-üzə qaldığı real vəziyyətin mənzərəsi idi. Gözə görünməz "taclı virus", rəhmsiz "qatil" kimi harada necə yaxalayacaq, bilinmir.

...Heç bir ölkə "arzuolunmaz" qonağı gözləmirdi. "Qonaq"sa qəddar və rəhmsizdi. O qədər qətiyyətlidi ki, hətta, dünyanın ən "asıb-kəsən" dövlət başçılarını, milyardları olan zənginləri yerinə oturdub. Milyardlarla insanı evdə qalmağa məhkum edib. Maddi durumları hesabına dünyaya "meydan oxuyan"ların varı-dövləti kara gəlmir. Qısası, virus nə madiyyat tanıyır, nə də başqa parametrlərə görə ayrı-seçkilik biiir. İş o yerə çıxıb ki, ABŞ kimi nəhəng güc bu bəladan ən çox ziyana məruz qalıb.

2020-ci ilin Aprelin 30-na kimi, elan olunmuş statistikaya əsasən dünyada 3 mln.167 min 525 nəfər virusa yoluxub. Onlardan 957 min 312 nəfəri sağalıb və 224 min 554 nəfəri vəfat etib. Koronavirus 182 ölkəni ağuşuna alıb.

Sanki dünya məhvərini dəyişir. Bu insan övladının qəbahətinin, insafsızlığının, ədalətsizliyinin qarşılığı - "bəhəri»di. Bəlkə də dünyanın əşərəfi hesab etdiyimiz "məxluqların" əməlləridi bu qiyafədə qarşımıza çıxıb.

Biz nələr etməmişik, nələr: - Dağları uçurub dağıtmışıq, meşələri talamışıq, yerin təkindən "qanını-canını" sovurub çıxarmışıq. Cayların məcrasını dəyişmişik. Dənizlər arasında çaylardan iri kanallar çəkmişik. Səmaya sayı-hesabı bilinməyən hava laynerləri, sulara 10 minlərlə adamı üzərində aylarla daşıyan "şəhər gəmilər" buraxmışıq. Allah kəsmiş nəfsimiz o qədər itidi ki, "qarnımız" doysada "gözümüz" doymur ki, doymur. Nəticədə də dünyamızı öz əlimizlə "qaraltmışıq". Əvvəldə qeyd etdiyim yaxınımın uçmaqla bağlı tərəddüddə haqlı olduğu, bəlkə də ilahi ədalətə daha yaxındı. Bəlkə, düşünmək vaxtı yetişib - deyə, bu bizə bir siqnaldı. Yoxsa, bu koronavirusun bizimlə nə işi vardı?!...

Nə isə, hərə bir söz danışır. Bu da bir yanaşmadı. Əsas olan odu ki, hətta, dünyanın bərk gedən ölkələrinin də baş bilənləri bu bəla qarşısında mat-məəttəl qalmış kimi görünürlər.

Heç baş açmaq olmur. Bilmirsən, indiyəcən dünyaya meydan oxuyanlar, özünnən zəiflərə hərbə-zorba gələnlər birdən birə niyə bu günə düşdülər?

ABŞ Çini ittiham edir, Çin də ABŞ-ı. Nə işdisə baş açılası deyil. Virtual məkanda bu işdə inglislərin əlinin olması ilə bağlı məlumatlar da geniş yer alıb. Guya bu virusu düzəldiblər ki, dünya əhalisinin sayını azaltsınlar. Əgər, doğudanda belədisə, bəs niyə bu işdə ən çox qınaq obyekti olan ölkər daha çox insan təlafatına məruz qalıblar. Əslində bu yanaşma o halda məntiqli sayılardı ki, epidemiyadan daha çox insan təlafatı əhali sayı milyardın üstündə olan ölkələrdə - Çində (1,439,323,776), Hindistanda (1,380,004,385) olaydı. Lakin, gedişat göstərir ki, "COVİD-19"-un ocağı Çində alovlansa da əhali sayı 331 mln. nəfər olan ABŞ-da və əhali sayı cəmi 67 mln. nəfər olan Böyük Britaniyada ölum sayı Cindəkindən dəfələrlə çoxdur.

Statistikaya diqqət yetirək: 30 aprel tarixinə dünyada CORONAvirusa yoluxanların sayı 3 milyon 249 min nəfər, ölüm sayı isə 230 min 804 min nəfər olub. Cəmi ölənlərin təxminən 3,7 nəfərindən biri ABŞ (62 min 208 nəfər) vətəndaşıdır. Ölüm sayına görə sonrakı yerlərdə əsasən Avropa ölkələri - 27 min 967 nəfərlə İtalya, 26 min 97 nəfərlə İngiltərə , 24 min 543 nəfərlə İspaniya , 24 min 87 nəfərlə Fransa, 7 min 594 nəfərlə Belçika, 6 min 518 nəfərlə Almanya, 6 min 28 nəfərlə İran, 5 min 541 nəfərlə Brazilya, 4 min 795 nəfərlə Hollandiya və 4 min 633 nəfərlə Çin gəlir.

Bu mənzərə fonunda hələ ki, nəhəng güclər arasında virusun yaranması və yayılması ilə bağlı qarşılıqlı, sonu görünməyən dartışma səngimir. "Virusun vətəni"ndə məlumatların gizlədilməsi və dünya ictimaiyyətinə bu barədə informasiyanın vaxtında ötürülməməsi Çini ciddi qınaq obyektinə çevirib. Dünya iqtisadiyatı isə çökür. Neftə istehlakçı tələbatı o hədə azalıb ki, qiymətlər mənfinin altına düşüb. Artıq dünyanın iri neft istehsalçıları nefti satmır. Onu ölkədən kənarlaşdırmaq üçün əlavə vəsaitlər xərcləməli olur. Dünyada indiyədək görünməmiş bir tendensiya baş verir.

Lakin, bu böhran zamanı ABŞ-da yerləşən "Amazon" onlayn alış-veriş şirkətinin səhmləri 5,3 faiz yüksəlib. Buna görə də şirkətin yaradıcısı Ceff Bezosun sərvəti qısa müddətdə 24 milyard dollar artıb. Artan tələbləri qarşılamaq məqsədilə "Amazon" təkcə ABŞ-da 170 min yeni işçi götürəcəyini bəyan edib.

Bu arada "COVİD-19" böhranının dünyamıza yeni baxış, yeni yanaşma gətirəcəyi ilə bağlı fikirlər dolaşır. Böyük ehtimalla həyatımızda, məişətimizdə müsbətə doğru ciddi dəyişiklikər labüddür. Pandemiya sağlamlığımızın və insani keyfiyyətlərimizin dəyərini, gigiyeniyamızın önəmini bizə indiyədək görmədiyimiz, eşitmədiyimiz forma və məzmunda anlatdı. Yayılan məlumatlara görə dünya iqtisadiyyatı zərər çəksə də insanlığı günəşin ulturabənövşəyi şualarından qoruyan azon təbəqəsinin qara dəliyinin bərpa olunması baş verir. Dünyanın ekoloji durumu xeyli yaxşılaşıb. Həyatımızın yeni məcrada irəliləməsi üçün informasiya texnologiyalarının, onlayn xidmətlərin əhatə dairəsi böyüyüb və bu istiqamətdə yeni keyfiyyət imkanları yaranıb.

Nə demək olar?

Bəlkə də "İlahi varlıq" tərəddüdlər və ziddiyətlərlə dolu olan "COVİD-19" pandemiyasının fonunda baş verən tələfatlar və dərin iqtisadi tənəzzül müqabilində "dəyərsizləşmiş» insanlığın xilası yolunda bəşərə yeni, daha üstün təkamül metodu nəsib edəcək.

Bəlkə də bu ötən ərəfədə evdə qalmağa məhkum edilmiş insanlıq fürsətdən yararlanaraq, olub-keçəni saf-çürük edəcək, özünü, ətrafını və bütövlükdə cəmiyyəti yeniləməyə çalıçacaq. Nəhayət, insanlar köhnə qaydalarla yaşamağın mümkünsüz olduğunu analayacaqlar. Daha "cəsur" mövqeydə durub koronavirusa "rişxənd" edənlər də, pandemiya barədə ziddiyətli düşünənlər də yeni dönəmin başlanğıcında olduğumuzu qəbul etmək məcburiyyətində qalacaqlar.

Dünyanın hər yerində olduğu kimi, ölkəmizdə bəzi insanlar virusun bir oyun olduğu qənaətindədilər. Bu səbəbdən də beləlləri ölkədə təyin olunmuş qarantin qaydalarına riayət etmir. Ara məsafəsini gözləmir, ictimai yerlərdə sıxlığı artırır, qoruyucu maskalardan istifadə etmir. Bir sözlə, "boş şeydi" – deyib, keçirlər. Əsas arqumentləri də o olur ki, bəs ətrafımızda, yaxınlarınmız arasında virusa yoluxanlar yoxdu, axı. Axı, hər kəsin ətrafında belə xəstələr olmuş olsaydı, onda indi əhalimizin yarısı virusa yolxmuş olmalıydı.

Müsbət haldı ki, bizdə digər ölkələrə nisbətən virus hələ ki, geniş yayılmayıb. Lakin, buna baxmayarq, aprelin 30-dək ölkəmizdə 1766 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilmiş, onlardan 1267 nəfər müalicə olunaraq sağalmış, 23 nəfər vəfat etmişdir.

İndi istəyirsən inan, istəyirsən inanma. İstəyirsən oyun hesab et oyunçu ol, ya da "ofsaytda» qal!

... Koronavirusu bir oyun hesab edənlər, sonda sözüm sizədi: bəlkə bu dünyanın özü bir oyundu? Çünki, dünya yaranandan çoxları belə düşünüblər. Lakin, hər kəsi qane edəcək cavab hələ ki, yoxdu. Böyük ehtimalla "COVİD-19" virusunun da taleyi müəmma olaraq qalacaqdır.